*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 75-82* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.75*

# Kamal Abdullanın romanlarında yaddaşın və yadlaşmanın dialektikası

**Fəxriyyə İsayeva**
Azərbaycan Dillər Universiteti, dissertant
Mingəçevir Dövlət Universiteti – müəllim
E-mail: fexriyyeisayeva_2020@mail.ru

**Annotasiya.** Kamal Abdullanın romanlarında yaddaş və yadlaşma arasında dialektik əlaqə insanın keçmişə bağlılığı və öz kimliyinə yadlaşması kimi mürəkkəb prosesləri əks etdirir. Müəllifin "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox" və digər əsərlərində yaddaşın dinamik təbiəti, onun kollektiv və fərdi tərəfləri ön plana çəkilir. Yaddaş keçmişi anlama və bərpaetmə vasitəsi olduğu qədər, eyni zamanda yadlaşma səbəblərindən birinə çevrilir. Bu əsərlər insanın öz keçmişinə qayıdaraq itirilmiş mənalarını bərpa etməyə çalışmasını, lakin bu yolda həm də reallıqla mübarizə apardığını göstərir. Müəllif yaddaş və yadlaşmanı həm fərdi, həm də milli səviyyədə tədqiq edərək dərin fəlsəfi və bədii məzmun yaradır.
**Açar sözlər:** Yaddaş fenomeni, özgələşmə, Kamal Abdulla, roman, Azərbaycan ədəbiyyatı

**Məqalə tarixçəsi:** göndərilib – 09.06.2025; qəbul edilib – 24.06.2025

# The dialectics of memory and alienation in Kamal Abdulla's novels

**Fakhriyya Isayeva**
Azerbaijan University of Languages, dissertator
Mingachevir State University – teacher
E-mail: fexriyyeisayeva_2020@mail.ru

**Abstract.** The dialectical relationship between memory and alienation in Kamal Abdulla's novels reflects the complex processes of human attachment to the past and estrangement from one's identity. In works such as "*Incomplete Manuscript*", "*The Valley of Sorcerers*", "*No One to Forget*", and others, the author emphasizes the dynamic nature of memory and its collective and individual dimensions. Memory serves as a means to understand and reconstruct the past but also becomes one of the causes of alienation. These works illustrate how individuals strive to reconnect with their past to recover lost meanings, yet also struggle with reality along the way. The author explores memory and alienation on both individual and national levels, creating profound philosophical and artistic depth.
**Keywords:** phenomenon of memory, alienation, Kamal Abdulla, novel, Azerbaijani literature

**Article history:** received – 09.06.2025; accepted − 24.06.2025

## Giriş / *Introduction*

Bədii ədəbiyyatda özgələşmə motivi insanın özündən, cəmiyyətdən, dəyərlərdən və ya həqiqətdən uzaqlaşma prosesini təsvir etmək üçün istifadə edilən mühüm mövzulardan biridir.

Fəlsəfi və psixoloji köklərə malik olan bu anlayış Karl Marksın sosial yadlaşma nəzəriyyəsindən tutmuş, Martin Haydeqqerin ekzistensializmində insanın dünyaya və öz varlığına yadlaşması probleminə qədər geniş bir spektrdə şərh olunub. Ədəbi baxımdan özgələşmə motivi xüsusilə XX əsr postmodernizmi çərçivəsində insanın kimlik böhranı, cəmiyyətlə əlaqəsinin itirilməsi və reallıqla qarşıdurma məsələlərinin qoyuluşunda mərkəzi rol oynamışdır.

Mahiyyət etibarilə bir-birinə zidd olan yaddaş və yadlaşma prosesi arasında dairəvi bir əlaqə mövcuddur. Xüsusilə xatirələrin ağırlığı, ağrısı özünümüdafiə instinktinə sığınaraq yadlaşma hissini doğura bilir. Keçmişin xatirələrindən qopa bilməyən insan bugününə adaptasiya ola bilmir, yeni şəraitə uyğunlaşmaqda və ya sağlam münasibətlər qurmaqda çətinlik çəkir. Odur ki, keçmişə yadlaşma bir tərəfdən xilasedici olsa da, digər tərəfdən yaddaşın itməsi, xatirələrin yoxa çıxması insanı köksüz, bağsız, bünövrəsiz bir məfhuma çevirir. Çünki insanı var edən onun yaşantıları, bunların əsasında əldə etdiyi təcrübələridir.

Burada və indi var olan insanın mövcudluğu həm də keçmişinə nəzərəndir. Şəxsiyyətin formalaşmasında xüsusi rola malik olan yaddaş yalnız faktları deyil, onlarla bağlı emosional təcrübələri də qoruyur. Keçmişlə körpülər yaddaş vasitəsilə qurulur, insan özünü baş verənlər və münasibətlər kontekstində dərk edir. Yaddaş statik deyil; dinamik və subyektivdir, xarici aləmin təsirlərinə və bu səbəblə təhriflərə məruz qalır.

Nobel mükafatı laureatı Erik Kandel "Yaddaşın axtarışında" adlı elmi-kütləvi kitabında bu mexanizmin sadə xarakteristikasını verir: "Yaddaş yalnız bizim şəxsiyyət olaraq bütövlüyümüzü təmin etmir, o həmçinin uzun əsrlər boyu cəmiyyətin inkişafının davamlılığına xidmət edən mədəni ötürücüdür. Hərçənd insan beyninin ölçüsü və quruluşu Afrikada təxminən 150.000 il öncə ilk dəfə Homo sapiens növü meydana gələndən bəri dəyişməyib, ayrı-ayrı fərdlərin öyrənmə qabiliyyəti və onların tarixi yaddaşı əsrlər boyu qarşılıqlı öyrənmə, yəni mədəniyyətin ötürülməsi sayəsində artıb" [10, s.13]. Müəllif mədəni evolyusiyanın inkişafını öz-özünü "böyüdən" yaddaşın ötürücü funksiyası ilə əlaqələndirir. Belə olduğu təqdirdə mədəni yaddaşın itkisi ümumən itkilərin miqyası baxımdan mənzərəni aydın göstərə bilir.

## Əsas hissə / *Main Part*

Bədii ədəbiyyatda yaddaş həm keçmişin sədası, həm də ruhun güzgüsü kimi çıxış edir. Əsərlərdə yaddaşın xüsusən dəyərlər baxımından cəmiyyətə faydalı olduğu qədər insana yük ola bildiyini də izləyirik. O heç də həmişə "sədaqətli" deyil; yeri gəldikcə xatirələri təhrif edə, bəzi detalların üzərindən keçə də bilir. Bu səbəblərdən yaddaş ədəbiyyatda çox vaxt mistik bir obyekt kimi təsvir olunur. Onun oyanması, adətən, kiçik bir detalla bağlı olur. Məsələn, Marsel Prustun yaddaşın gücünü təsvir edən dünyaşöhrətli "İtirilmiş zamanın axtarışında" romanında qəhrəmanın uşaqlıq xatirələri bir fincan çayın içində isladılmış "Madlen peçenyesi" vasitəsilə canlanır. Bu kiçicik hərəkət keçmişin dərinliklərindən qopan bir qasırğa kimi onun zehnini bürüyən trigerə çevrilir.

Ədəbiyyatda yaddaş mövzusu seçiciliyi ilə diqqət çəkir. Belə ki, insanın yaddaşı şüuraltı olaraq pozitiv və neqativ, ağrılı və xoş xatirələr arasında seçim edir. Ağrılar, adətən, yaddaşın daha dərin qatlarına qazılır, yaralar çox vaxt silinməz izlər qoyur. Ədəbiyyat məhz bu dramatikliyə daha çox diqqət ayırmaqla insanın kritik halını, bu situasiyalarda zəif və üstün tərəflərini əks etdirir.

Yaddaş motivi Kamal Abdullanın da demək olar, nəzmli-nəsrli bütün yaradıcılığını birləşdirən ümumi xətdir. Birində az, digərində çox, mütləq keçmişə qayıdış var. "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox", "Sirlərin sərgüzəşti", "Laokoon... Laokoon... yaxud bir romanın gerçək yazılma tarixçəsi" romanlarında səbəb-nəticə əlaqələri aktivdir, nəzərlər daha öncəyə yönəlikdir. Hər bir romanda qəhrəmanlar ləpirləri üzərinə addımlarını qoyub çatdıqları bugündən ilk izlərin düşdüyü zamana, yolun lap başlanğıcına üz

tuturlar. Bu mənada, yol və yaddaş Kamal Abdulla yaradıcılığı üçün eyni arxetipik anlama malik olur.

Odur ki, Mətanət Vahidin "Kamal Abdullanın şeirlərində yol motivi "ekzistensial" xarakteri ilə müəyyənləşir" fikrini yazıçının nəsrinə, həmçinin romanlarına da aid etmək yerinə düşür: "Bu kontekstdə yol yalnız peyzaj-məkan mənasında deyil, həm də və daha çox fəlsəfi-estetik, simvolik, ruhani anlamlar daşıyır. Demək olar ki, bütün şeirlərindən bu və digər dərəcədə keçən yol leytmotivi müxtəlif variasiyalarda təzahür edir. Burada dar mənasında "yol"dan nadir hallarda bəhs olunur. Kamal Abdullanın protoqonisti üçün yol getmək mövcudluğun vacib elementidir. Bu yol ideal azadlıq - ideal mən - ideal həyat axtarışı kimi gedilir, yol arxetipi həyatın metaforası, insanın mental məkanı kimi reallaşır" [8, s.18].

Kamal Abdullanın əsərlərində həm milli kimliyi nişan verən kollektiv yaddaş, həm də şəxsi təcrübəni əks etdirən fərdi yaddaş əsasən axtarış motivi ilə təcəssüm edir. Həqiqəti aramaq niyyətinə kimi bələd olduqları ilə bəlkə heç özü də fərqində olmadan özünə yadlaşmış insan, cəmiyyət yalnız axtarılan tapıldıqdan sonra əslinə, özünə qovuşur. Xüsusilə, "Yarımçıq əlyazma" (2004) romanında yaddaşın mürəkkəb təbiəti sirr qatları fonunda üzə çıxır. Romanın qəhrəmanları suallarına aradıqları cavabları tapmaq və kimliklərin üzərindən sirr pərdələrini qaldırmaq məqsədilə keçmişə (əslində, mətnə) qayıdır, nəyisə tapıb tamamla(n)maq ehtiyacı ilə yaddaşa müraciət edirlər. Keçmişə yönələn bu baxışlar yalnız fərdi deyil, həm də tarixi yaddaşı təmsil edir; Azərbaycan tarixi, mədəniyyəti və folklorunun elementləri əsərdə bu yaddaşın təzahür formaları kimi canlandırılır. "Yarımçıq əlyazma" da daxil olmaqla, Kamal Abdulla romanlarında "yazı" yaddaşın ən etibarlı mənbəyi, ən sadiq dostudur; axtarıb tapmaq arzusu, niyyəti bugün naminə qaranlığa işıq tutmaq məqsədi daşıyır: "Oxuduqca çox mürəkkəb və vacib, eyni zamanda həm də çox sadə və komik bir situasiyanın içinə düşdüyünü hiss edirsən. İnsanların o uzaq dövrdə belə, təxmini, bizim bu an yaşadıqlarımızı hisslərlə yaşadığının, bizim kimi nəfəs aldığının, yaşayan və təlaşlarının şahidi olursan. Elə bil, bizlə onların arasında bu boyda zaman kəsiyi yoxmuş. Elə bil, bu boyda zaman kəsiyi ancaq və ancaq paltarlarının və zövqlərinin, yəni kirşan və yatıqlarının, adətləri və əyrikəmlərinin, bir sözlə, ancaq üslubun, daha geniş götürsək, formanın dəyişməsinə həsr olunub. Məişət, məzmun isə olduğu kimi – indi olduğu kimi demək də bir qədər çətindir, belə deyək, təxmini, o zaman olduğu kimi qalmaqdadır, daha doğrusu, elə bir dəyişiklik olmadan davam etməkdədir" [2, s.27]. Başqa sözlə, tapılan "xəzinə"lər, yetilən həqiqətlər həm keçmişlə indi arasında prinsipial fərq olmadığını üzə çıxarır, həm də bələd olduqlarımızı, əslində, səhv bildiyimiz (anladığımız) mənasında ondan nə qədər qopduğumuzu aydınlaşdırır.

Kamal Abdullanın romanlarında yaddaş fenomeni və yadlaşma problemi sadə olduğu qədər də mürəkkəb bir konstruksiya ilə ehtiva edilir. Bu əsərlərdə yaddaşdan silinmiş (yaxud təhrif edilmiş) olanlar unutqanlığın qurbanlarıdır, xatırlamaq yaddaşı oyatmaq, diri saxlamaq deməkdir. Oxucuda xatırladıqlarımızın doğrudan da nə dərəcədə yaddaşımızdan doğrulduğu sualını yaradır. Çünki oxu prosesində şahid ola bilirik ki, xatırladığımızı düşündüklərimiz, əslində, yaddaşımızdan deyil, xəyallarımızdan da doğula bilir. Yəni dolayısı ilə, hər bir insan, yaxud toplum keçmişi özü üçün bilərəkdən və ya bilməyərəkdən uydurub, özü də ona inana və başqalarını da inandıra bilir. "Yaddaş yalnız kulturoloji arqument deyil, həm də müəllifin zamanla və özü ilə oyunudur. Doğrudan da, bir tərəfdən, hər şeyi unutmaq gərəkdir, xatırlanası kimsə qalmamalıdır, digər tərəfdən, xatırlanası adamlar və hadisələr var, bir kimsə unudulmamalıdır" [5, s.16]. "Yarımçıq əlyazma" romanı yaddaşımıza qazılanın əksinə, keçmişlə bağlı bildiklərimizi alt-üst edən alternativ bir dastan təqdim edir. Amma unutmaq olmaz ki, bu, sadəcə bir romandır və müəllif bədii əsərdə təxəyyülünə sərhədsiz genişlik verməkdə sərbəstdir. "...mətndəki mətləblər əzəli və sonsuzdur, suallar mahiyyətcə cavabsızdır, konseptlər arxetip səciyyəlidir və bunların nə başlanğıcı, nə yekunu ola bilər – idrak prosesinin "əvvəli və sonu" olmadığı kimi..." [4, s.71].

Kamal Abdullanın "Unutmağa kimsə yox" (2011) romanında da özgələşmə motivi yaddaş prizmasından əksini tapır. Yaddaş insanı öz keçmişinə, deməli, həm də bugün və gələcəyinə bağlayan əsas psixoloji elementdir. Əsərdə gənc tədqiqatçı F.Q.-nin Çiçəkli yazını oxumaq niyyəti ilə kəndə getməsi axtarış motivini hərəkətə gətirir. Sonra bütün baş verənlər isə saysız-hesabsız hadisə və detal kimi bu hərəkət zəncirinin halqasına çevrilir. Keçmişin və kimliyin axtarışında yaddaşdakı boşluqlar həqiqi mahiyyətə yadlaşmanı ehtiva edir. Çünki aidlik duyğusunun itməsi yaddaş zəncirində halqaların qırılması, daşların hamısının yerində olmaması ilə bağlıdır. "Unutmağa kimsə yox" romanının yaddaşını itirmiş qəhrəmanı həm özünü tapmağa çalışır, həm də çatışmayan yaddaş elementlərinin "boşluğu"nun yaratdığı yadlaşma hissi ilə daxili mübarizədədir. Roman oxucu qarşısına sual qoyur: insan öz tarixi keçmişi üçün nə qədər məsuliyyət daşıyır?

Yaddaş fenomeni bugünün səbəbi kimi, Kamal Abdullanın bu və digər romanlarının əsas fəlsəfi mahiyyətini təşkil edir. "Unutmağa kimsə yox" kitabında fəlsəfi bir xətt var və bu fəlsəfilik yazıçının təsvir etdiyi hadisələrin məzmun və mahiyyətindən daha çox, həm də onunla əlaqəli olaraq hadisələrin bədii yozumunda meydana çıxan müəllif mövqeyi və münasibətində, yazı üslubu və manerasında, obrazları tipikləşdirmə, xarakterləri fərdiləşdirmə keyfiyyətində üzə çıxır. Əsərdə insan da, tarix də hər hansı məhdud zaman çevrəsinin problemi (predmeti) deyil. Daha doğrusu, əsərdə nəyin predmet, konkret məqsəd olması müəyyən deyil. Zaman və məkan çərçivələrindən kənarda götürülən insan özünün mənəvi-psixoloji aləmi, lirik-fəlsəfi düşüncələri ilə daim təbiətin bir hissəsi kimi, onunla sıx təmasda mənalanır, gerçək bir əməl keyfiyyəti kəsb edə bilir" [3, s.264].

Kamal Abdulla yaddaş fenomenini yalnız fərdi təcrübə kimi deyil, həm də kollektiv yaddaşın bir hissəsi kimi təqdim edir. Bu isə cəmiyyətin öz keçmişi ilə əlaqəsini kəsdiyi zaman meydana çıxan özgələşmə prosesini vurğulayır. Əsərdə keçmişin yadda saxlanılması yalnız fərdlərin deyil, həm də cəmiyyətin mənəvi bütövlüyünü təmin edir. Yaddaşdan məhrum olan qəhrəmanlar təkcə öz kimliklərinə yox, tarixə və mədəniyyətə qarşı özgələşmiş görünürlər. George Steiner "Goysaqqalın qəsrində" (1971) kitabında yaddaşla bağlı yazır: "Bizi idarə edən hərfi mənada keçmiş deyil, keçmişin obrazlarıdır. Bu obrazlar əksər hallarda, miflər kimi, yaxşı strukturlaşdırılmış və seçicidir. Obrazlar və keçmişin simvolik konstruksiyası yaddaşmıza, demək olar ki, genetik informasiya kimi, hisslərimizə uyğun möhürlənir. Hər bir yeni tarixi epoxa bu rəsmdə özünü və keçmişinin aktiv mifologiyasını əks etdirir" [7, s.3]. Dəyərlər həmişə keçmiş üzərində bərqərardır və mənəvi prinsiplərin unudulması cəmiyyətin öz köklərindən uzaqlaşması ilə nəticələnir. Bu baxımdan, Kamal Abdullanın yaratdığı yaddaşın itirildiyi dünya sadəcə fərdlərin deyil, bütöv bir mədəniyyətin yadlaşdığı bir məkana çevrilir.

Kamal Abdullanın romanlarında yaddaş xatırlamaqdan daha çox, unutmaqla assosiasiya olunur. Unutmaq yaddaşın tamamlayıcısı olduğu kimi, həm də onun təhdididir. Hər bir romanla müəllif sanki oxucuya sual verir: insan keçmişini nə dərəcədə və necə xatırlamalıdır? Bu sualların cavabı heç bir halda birmənalı deyil. K.Abdulla əsərlərində çözüm üçün açarların yerini nişan versə də, hazır cavab qəlibləri təqdim etmir. Məhz bu qeyri-müəyyənlik və oxucuya mətnin müəllifinə "tərəf müqabili" olması şansını yaratmaqla, Kamal Abdullanın romanları öz unikallığını saxlayır. Belədə mətndəki yadlaşma motivini unutmaq qədər, xatırlamaq da aktuallaşdıra bilir. Hər şey bir az da oxucunun səbəb-nəticə əlaqələrinə və romanın ana xəttini nəyin təşkil etdiyinə qərar verməsindən asılıdır. "Sirlərin sərgüzəştini dünyanın yaddaşının ayrı-ayrı yuvacıqları arasında axtaran oxucu bilməlidir ki, o mətni yox, mətnin həbsxanasındakı sonsuz lüğəti aşkarlayır, çünki ayrı-ayrı sirlər arasındakı fraktal münasibətlər, sirlərin özünün rekursiyası, çin qutuları və ya rus martyuşkaları kimi "iç-içə" modelləşməsi sonsuz lüğətə çevrilir, bu sonsuz lüğətin həbsxanasından mətni xilas etmək hardasa mümkünsüzdür. "Sirlərin sərgüzəşti" isə alternativ izah təklif edir və bunu dolayı yolla oxucuya çatdırır" [9, s.19]. Maral Yaqubovanın "Sirlərin sərgüzəşti" romanı ilə bağlı bu fikirlərini Kamal Abdullanın digər əsərlərinə də şamil etmək mümkündür. Çünki onun

bütün romanlarını ideya-estetik cəhətdən birləşdirən bilinən və bilinməyən bir ana xətt var və problemin qoyuluşu kimi, çözümü də hamısı üçün əsasən keçərlidir.

“Sehrbazlar dərəsi” (2006) romanında da həmin xəttin hərəkət trayektoriyasını izləyərək mətnin həqiqətinə çatmaq mümkündür. Sehrbazların dərəsi fiziki bir məkan olmaqla yanaşı, həm də metaforik anlam daşıyır. Bu dərə insanların gündəlik həyatdan fərqli reallıqlara daxil olduğu, bilinən mahiyyətdən qopub yeni bir anlam kəsb etdiyi məkan kimi təqdim olunur. Sehrbazlar dərəsi, bir növ, reallıqdan qaçıb paralel məkanda insanın öz gerçəyi ilə qovuşmasını simvollaşdırır. Cəmiyyətə yad olan dərvişlər özlərinin ilkin mahiyyətlərinə doğmadırlar.

Postmodern estetikası ilə yazılmış “Sehrbazlar dərəsi”ndə magik realizm elementlərinin istifadəsi romanda realla irreal, qaranlıqla aydınlıq, ruhla bədən, insanın iç dünyası ilə ətraf aləm arasındakı ziddiyyətləri üzə çıxarır. Bu məqamlar gerçəklik və xəyal arasındakı sərhədləri aşmağa imkan yaradır, insanın ruhunda baş verən dəyişkənlik obrazların xarakterlərinə bələd olmağa kömək edir.

Cəllad Məmmədqulunun və Karvanbaşının ruhsal dilemmaları, daxili ziddiyyətlərlə cəmiyyətin gözləntilərinin kəsişmə nöqtəsində qopması xeyir-şər konsepsiyasını qeyri-ənənəvi şəkildə təqdim edir. Roman birmənalı yaxşı və pis ayrıntısı aparmır, oxucu obrazların yaddaşından səpələnən xatirələrə əsasən və onların bugünkü davranış və seçimlərinə nəzərən özü qərar verir: kim həqiqətə nə dərəcədə yaddır? Yaddaş bizi xeyrə yaxınlaşdırır, yoxsa şərə?

Karvanbaşının “Söylə, söylə mənə, heç ağabəyimi görmüsən orada? Günahsız cavan qanına qəltan ağabəyimi?..” sualına Ruh təşvişlə, bezginliklə cavab verir: “Bilmirəm sən nə danışırsan. Tanımıram mən onu, başa düşürsən, tanımıram. Orada mən burda olub-keçəni unuduram. Bizim yaddaşımız bura qayıdanda oyanır. Onu da unutmuşam. Belə yaxşıdı…” [1, s.174]. Amma çox keçmədən dayanıb Karvanbaşının ağabəyini niyə qanına qəltan edildiyini danışır. Çağırılıb suallarla narahat edilən Ruh belə, yaddaşından imtina etməyə çalışır, xatırladıqları ona əziyyət verir. Romanda yaddaşa yadlaşma səbəbi əzablardır, insanın və ruhun əzabları.

Romanda kəskin daxili konfliktləri ilə ön planda olan cəllad Məmmədqulunun qəddarlığının psixoloji səbəbləri açılır; “uf” demədən, can alması özünün travmaları ilə izah olunur. Köməkçisi olan qoca qul onun haqqında deyir: “Bu adamın belə ciddi-cəhdlə, ləzzətlə günahkarlara, günahsızlara əzab-işgəncə verməsi, baş kəsməsi, uşaq boğması, bunun öz dərdini buna unutdurur. O dərd böyük dərddi, ona dözmək asan məsələ deyildir, ölümlə belə oynamağı, asmağı-kəsməyi o böyük dərdin tənhalığının zülmətini silib aparır, o dərdi dərdsizləşdirir, əgər dərdsizləşdirə bilirsə” [1, s.115]. Deməк, vicdanı, insanlığı unutmaq müəyyən məqamlarda öz keçmişindən uzaqlaşmaq məramı daşıyır. Oxucu hətta günahsız uşaq ölümlərinə bais olan cəlladın belə halına acımağa başlayır, bu məqamda anlayışlar öz mütləqliyini itirib, nisbiləşir.

Romandakı zaman anlayışı da nisbidir: keçmişin unudulmuş və təhrif olunmuş şəkildə xatırlanması sanki gələcəyi də qeyri-müəyyənləşdirir, obrazlar xatirələrinə yadlaşdıqca həqiqətdən uzaq düşürlər. Bunun fərqində olanda isə axtarışa çıxırlar, keçmişlə indi arasındakı qırılmalar zəncirin itmiş halqalarını tapmağa sövq edir. Oxucuda həyat, zaman, yaddaş və insan təbiətinin gizlinləri ilə bağlı suallar yaradan əsərdə obrazlar arasındakı mürəkkəb münasibətlər göstərir ki, keçmişi qəbul etmədən hüzura çatmaq olmur.

Kamal Abdullanın öz obrazını da qismən yaratdığı “Sirlərin sərgüzəşti” (2019) romanında yenə bir axtarışın səbəbi qarşıya qoyulan suallardır. Əsərin fəsillərinin ilin fəsillərinə uyğunlaşdırıldığı bu romanda axtarışın səbəbi də unutmaq, unutqanlıqdır: Həsən müəllimin yaddaşı, daha doğrusu, yaddaşsızlığı onu yaşadığı reallığa, içində olduğu zamana, hətta doğma övladlarına belə özgələşdirir. Bununla belə, o, halından məmnundur, yaddaşı oyaq olmadığı üçün nəyi unutduğunun fərqində belə deyil, xatırladıqlarının içərisində hüzurla yaşayır. Romandan anlaşılır ki, Həsən müəllim bir az da özü ilə şüur oyunu oynayır. Bunu bilərəkdən etdiyi sual altındadır, amma ömür

boyu xəyalını qurduğu təkliyə sığınması onun uzun illərdir ruhundan qopan istəyin indi, ahıl yaşında reallaşması keçmişdənqalma bir arzudur.

Paralel zaman və məkan anlayışları, yaddaş fenomeni, real və irreal hadisələrin təsviri ilə zəngin olan "Sirlərin sərgüzəşti" romanı müəllifin bundan öncə yazdığı müxtəlif janrlı əsərlərdən qopub gələn obrazların və əhvalatların, bir növ, davamıdır. Burada baş qəhrəman da, sonradan romana qoşulan digər obrazlar da özü olduqları qədər, həm də sanki özləri deyillər. Şaxtalı bir qış gecəsi Düzəngah yolunda təpənin üstündəki Hüngür mağarasında özünün təkcənəlik vaxtına bürünüb oturan Hacı Mir Həsən ağa Səyyahın zamanı da sirdir, məkanı da. "Unutmağa kimsə yox" romanındakı kimi, burada da yaddaşın zamanla əlaqəsi, keçmişin və indinin bir-birinə qarışması oxucuya zamanın nisbiliyini, keçmişin və gələcəyin indidə birləşə biləcəyini hiss etdirir.

Yadlaşma mövzusunu mürəkkəb və çoxqatlı şəkildə əks etdirən "Sirlərin sərgüzəşti" romanında da yadlaşma həm fərdi, həm də sosial kontekstlərdə təsvir edilməklə, insanın özü, keçmişi və mühiti ilə münasibətindəki çarpaz əlaqələrə fokuslanır. Əsər boyunca Həsən müəllimin keçmişi ilə əlaqəli yaşadığı daxili münaqişələr yadlaşmanın fərdi səviyyədə ifadəsidir. Keçmişdə baş verən və ya baş verdiyini düşündüyü hadisələr, reallığı əks etdirən və şüuraltının uydurduğu xatirələr qəhrəmanın özünü indiki zamanına tam inteqrasiya edə bilməməsinə səbəb olur. Həsən müəllim özü ilə yaddaş və şüur oyunları ilə özünü yaxın və uzaq ətrafından ayırmağı bacarmaqla, əslində, xilas olur.

"Həsən müəllimin də altsheymer xəstəliyinə tutulması onu ülvi məqsədindən uzaqlaşdıra bilmir. Yazıçı bizə "məlum" həqiqəti xatırladır: Böyük həqiqətlərə çatmaq üçün lazım gələrsə, "yaddaşı" da qurban vermək olar. Məsələ burasındadır ki, bugündən qopan yaddaş var gücü ilə keçmişə işləyir" [6, s.343]. Romanda tarixçilər qurumunun sədri olan Həsən müəllimin yaddaşsızlığı, hər şeyi unutması təkcə taleyin ironiyası deyil, müəllifin oxucu ilə də, tarixin özü ilə də qurduğu oyundur. Kamal Abdulla yaddaş fenomenini aparıcı xəttə çevirdiyi bütün əsərlərində olduğu kimi, "Sirlərin sərgüzəşti"ndə də "tarix"i, keçmişi şübhə obyektinə çevirməyi bacarır. Yenə də oxucu mətndə "olanlar əslində olmuşlardırmı?" sualına cavab arayır. Ən maraqlısı isə odur ki, gələcək kimi, elə necəliyindən əmin olduğumuz keçmişin də nisbiliyinə növbəti dəfə şahid oluruq.

Kamal Abdullanın "Laokoon... Laokoon... yaxud bir romanın gerçək yazılma tarixçəsi" (2021) romanının əsas qəhrəmanı Vaqifin "Kitabi-Dədə Qorqud" dastanına olan marağı, həm də milli-mədəni yaddaşın əhəmiyyətini vurğulayır. Yaddaşın mərkəzi metafora çevrildiyi romanda müəllif onu yalnız fərdi deyil, həm də kollektiv fenomen kimi təqdim edir. Əsərin qəhrəmanları özlərinin və Dastanın "keçmişi" ilə üzləşdikcə, yaddaşın qeyri-sabit və fraqmentar təbiəti, rekonstruktiv funksiyası önə çıxır: yaddaş keçmişin tam şəkildə bərpası deyil, onun yenidən qurulması kimi təqdim olunur. Bu məqamda yaddaşın müəyyən qədər itməsi və ya təhrif olunması yadlaşma prosesinin fəlsəfi və bədii həllini vermək üçün vasitəyə çevrilir. Kamal Abdullanın digər romanlarında olduğu kimi, burada da gerçəklik nisbi və dual xarakterlidir.

Laokoon mifinə müraciət romanda yaddaş və yadlaşmanı daha dərindən anlamaq üçün açar funksiyasına malikdir. Bu mifoloji simvol insanın öz taleyi üçün mübarizəsinin qaçınılmazlığını, bəzən isə əksinə, taledən qaçmaq istəyini təcəssüm etdirir. Romanda mif yadlaşmanın və yaddaşın dialektikası ilə əlaqələndirilir: Laokoonun təkcə tanrılarla deyil, həm də öz daxili qorxuları və travmaları ilə mübarizə apardığını nəzərə alsaq, bu, obrazların yaddaş prizmasından özlərinə yadlaşmasını simvollaşdırır. Digər tərəfdən, mif keçmişə bağlılığı, eyni zamanda mifləşmiş keçmişdən qopmaq istəyini əks etdirməklə, yaddaş və yadlaşma mövzularının mürəkkəb münasibətini önə çəkir.

Kamal Abdulla nəsrinə məxsus olan çoxqatlı mənalara malik dil və üslub "Laokoon... Laokoon... yaxud bir romanın gerçək yazılma tarixçəsi" romanında yazı dilinin bəzən yaddaşın özü kimi qeyri-sabit olduğunu göstərmək üçün vasitəyə çevrilir. Obrazların dilində ifadə edə

bilmədikləri fikirlər onların yaddaş hüceyrələrindəki boşluqları göstərir, prosesin tamamlanmadığını əks etdirməklə dil yadlaşma mexanizminin bir aləti kimi çıxış edir.

Əsərin əsas fəlsəfi tezislərindən biri yaddaşın yadlaşmanı həm tətikləməsi, həm də ona qarşı çıxmasıdır. İnsan keçmişini dərk etməyə çalışdıqca, orada yeni "adalar kəşf etdikcə" ona tanış olan keçmişə yadlaşır. Bununla yanaşı, yadlaşma prosesində keçmişə qayıtmaq istəyi də baş qaldırır. Bu dialektik münasibət əsərin qəhrəmanlarının, xüsusən Vaqifin daxili dünyasında dramatik şəkildə əksini tapır. Kamal Abdullanın "Laokoon... Laokoon..." romanına postmodern estetikanın çərçivəsizliyi prizmasından yanaşsaq, yaddaş və yadlaşma arasındakı mürəkkəb əlaqənin əsərin əsasını təşkil edərək onun çoxqatlı semantik strukturunu formalaşdırdığını izləyə bilərik.

## Nəticə / *Conclusion*

Azərbaycan ədəbiyyatında yaddaş prizmasından yadlaşma motivi, əsasən, keçmişlə gələcək arasında yaranan boşluq, milli kimliyin parçalanması və şəxsi böhranlar fonunda meydana çıxır. Kamal Abdulla yaradıcılığında bu mövzunu özünəməxsus şəkildə təqdim edərək, postmodern üslubda həm fərdin, həm də xalqın keçmişlə bağlarının, daxili ziddiyyətlərinin və həqiqəti axtarma prosesinin uğurlu bədii həllinə nail olur. "Yarımçıq Əlyazma", "Sehrbazlar Dərəsi", "Unutmağa kimsə yox" və d. romanlarında Kamal Abdulla keçmişlə indinin, gerçəkliklə illüziyanın kəsişmə nöqtəsində yerləşən hadisələri təsvir vasitəsilə oxucunu tarixin, mifin və müasirliyin sərhədlərində gəzdirərək, yaddaş mövzusunu fərqli aspektlərdən işıqlandırır.

Kamal Abdullanın romanlarında yaddaş bir az da etik kodeksdir; universal bir təcrübə kimi, yalnız keçmişin deyil, həm də bu günün və gələcəyin açarıdır. Bu əsərlərdə yaddaş mövzusu miqyasına görə, təkcə Azərbaycan ədəbiyyatında deyil, ümumən dünya ədəbiyyatında bu fenomenin yeri və rolu haqqında dərin fəlsəfi-psixoloji təhlillər aparmaq üçün zəmin yaradır. Kamal Abdullanın romanları unutmaqla xatırlamaq arasındakı kimliyin mürəkkəb əlaqələrini dərk etmək imkanı verir. Yazıçının yaddaşa bədii yanaşması sadəcə fərdi kimlik çərçivəsi ilə məhdudlaşmır, həmçinin milli identifiklik vasitəsi kimi də əksini tapır. Beləliklə, Kamal Abdullanın romanlarında yaddaş prizmasından yadlaşma ağrılı və yaradıcı proses olmaqla, insanın özünü və dünyanı dərk etməsi üçün vasitədir.

## Ədəbiyyat / *References*


1. Abdulla K. Sehrbazlar dərəsi. – Bakı: Mütərcim, 2006.
2. Abdulla K. Yarımçıq əlyazma / Seçilmiş əsərləri (7 cilddə, I c.). – Bakı: Mütərcim, 2020.
3. Akimova E. Yeni təfəkkür və ədəbi tənqid. – Bakı: MBM, 2012.
4. Hacılı A. Kamal Abdulla: Seçimin morfologiyası. – Bakı: Mütərcim, 2010.
5. Kamal R. Yazıçı kosmoqoniyası: paralel dünyaların ahəngi. – "525-ci qəzet", 2011.
6. Qaraxanoğlu M. Kamal Abdulla: yaradıcılıq stixiyası. – Bakı: Füyuzat, 2024.
7. Steiner G. In Bluebeard's Castle - Some Notes Towards the Re-definition of Culture. – London: Faber & Faber, 1971.
8. Vahid M. Ümidlərin göydə durna lələyi – Kamal Abdullanın poetik məkanında yol konsepti. – "Ədəbiyyat qəzeti", 2020, 23 may.
9. Yaqubova M. Hacı Mir Həsən ağa Səyyahın "Sirlərin sərgüzəşti" risaləsi və ya müəllifin ölümsüzlüyü. – "Ədəbiyyat qəzeti", 2019, 28 dekabr.
10. Кандель Э.Р. В поисках памяти. – Москва: Corpus (АСТ). (Перевод: П.Петров), 2011.

# Диалектика памяти и отчуждения в романах Камала Абдуллы

**Фахрия Исаева**
Азербайджанский Университет языков, диссертант
Мингечевирский Государственный Университет – педагог
E-mail: fexriyyeisayeva_2020@mail.ru

**Резюме.** Диалектическая связь между памятью и отчуждением в романах Камала Абдуллы отражает сложные процессы привязанности человека к прошлому и отчуждения от собственной идентичности. В таких произведениях, как «Неоконченная рукопись», «Долина волшебников», «Некому забывать» и других, автор подчёркивает динамичную природу памяти, её коллективные и индивидуальные аспекты. Память выступает не только средством для понимания и восстановления прошлого, но также становится одной из причин отчуждения. Эти произведения показывают, как человек возвращается к своему прошлому, пытаясь восстановить утраченные смыслы, но при этом сталкивается с борьбой с реальностью. Автор исследует память и отчуждение как на индивидуальном, так и на национальном уровне, создавая глубокое философское и художественное содержание.

**Ключевые слова:** феномен памяти, отчуждение, Камал Абдулла, роман, азербайджанская литература